# “Xalq qəzeti”nin kitab rəfi

**Akademik Gövhər Baxşəliyevanın “Nizami Gəncəvinin etnik mənsubiyyəti” kitabı ingilis və fars dillərində işıq üzü görüb.**




Müəllif şairin milli kimliyi ilə bağlı təhriflərə və tarixi mədəni irsimizin qonşu xalqlar tərəfindən mənimsənilməsi cəhdlərinə cavab olaraq yazdığı və 2021-ci ildə rus dilində nəşr etdirdiyi eyniadlı kitabını geniş ictimaiyyətə çatdırmaq məqsədilə bu dəfə ingilis və fars dillərinə tərcümədə nəşr etdirib.

Kitabda Nizaminin öz əsərlərindən konkret faktlar əsasında şairin Azərbaycan türkü kimi etnik mənsubiyyəti sübuta yetirilib və bu məsələnin müxtəlif aspektləri geniş araşdırılıb. Həmçinin XII əsrdə Gəncə əhalisinin etnik tərkibi, Nizaminin harada və hansı ailədə doğulub boya-başa çatması, onun Azərbaycanla bağlılığı, türkə aid hər şeyə məhəbbət və rəğbəti, türk sözlərini tez-tez işlətməsi şairin etnik türk olmasına heç bir şübhə yeri qoymur.

***

AMEA Nəsimi adına Dilçilik İnstitutu Terminologiya şöbəsinin elmi işçisi Aytən Hüseynova-Qəhrəmanlının “Müstəqillik illərində beynəlmiləl terminlərin izahlı lüğəti” nəşr olunub.

Kitabda iqtisadiyyat, informasiya telekommunikasiya, nano və biotexnologiya, diplomatiya, səhiyyə, incəsənət, turizm, idman və s. sahələrə aid 1700-ə yaxın




termin və terminoloji birləşmələrin izahı verilib. Kitabın redaktorları filologiya elmləri doktorları, professorlar Nadir Məmmədli və Sayalı Sadıqova, rəyçilər filologiya elmləri doktoru, professor İsmayıl Məmmədli və filologiya üzrə fəlsəfə doktoru, dosent Vəfa Abdullayeva-Nəbiyevadır.

Lüğət linqvistika mütəxəs-sisləri, tələbələr, doktorantlar və geniş oxucu kütləsi üçün nəzərdə tutulub.




***

Tarix elmləri doktoru Nərgiz Əliyevanın “Omonimlər lüğəti”ndə Qafqaz və Azərbaycan” adlı kitabı işıq üzü görüb. Orta əsrlər ərəb coğrafiyaşünası Yaqut əl-Həməvinin “Formasına görə müştərək, yerinə görə fərqlənən adlar kitabı” əsasında hazırlanmış nəşrin elmi redaktoru Milli Azərbaycan Tarixi Muzeyinin baş direktoru, akademik Nailə Vəlixanlıdır. Kitabda Orta əsrlər Azərbaycanında və Qafqazda müxtəlif ərazilərdə verilən eyniadlı toponimlərin fərqli cəhətləri göstərilib və dəqiqləşdirilib. Həmçinin nəşrdə görkəmli şəxsiyyətlərin eyniadlı yerlərdən hansına mənsub olmasına aid məlumatlar təqdim edilib.

**Hazırladı: Ə.ƏLİYEV,**
**“Xalq qəzeti”**